## *PREZİDENT SEÇKİLƏRİ ƏRƏFƏSİNDƏ*

# TƏHSİLİMİZİN İLHAM ƏLİYEV MƏRHƏLƏSİ



**Akif Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*əməkdar müəllim,*
*Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
E-mail: a.abbasov@arti.edu.az

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* H.H. Əhmədov,
*ped.ü.elm.dok., prof.* H.Ə. Əlizadə

***Açar sözlər:*** *təhsil, təhsilimizin mərhələsi, təhsilin inkişafı, milli-mənəvi dəyərlər, təhsilə aid sərəncamlar*

***Ключевые слова:*** *образование, эпоха образования, развитие образования, национально-нравственные ценности, постановление об образовании*

***Key words:*** *education, the era of education, the development of education, national and moral values, the decree on education*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu vəzifəyə seçiləndən sonra ölkəmizdə bütün sahələrdə əsaslı islahatlar aparılmağa başlandı. Respublikamız nəinki regionda əsas qüvvə kimi özünü göstərdi, habelə dünya miqyasında layiqli yer tutdu. Regionda Azərbaycanın iştirakı olmadan geniş miqyaslı, əhatəli işlərin aparılması, dünya səviyyəli qərarların qəbul olunması, sadəcə, mümkün deyildir.

Ümummilli liderimiz Heydər Əliyev müasir Azərbaycanın qurucusu, baş memarı idisə, onun ləyaqətli varisi və davamçısı cənab İlham Əliyev bu quruculuq ənənələrini qoruyub saxlayan və inkişaf etdirən, respublikamızın tərəqqisini təmin edən bir şəxsiyyətdir. Uğurlu daxili və xarici siyasət yürüdür. Ölkəmizin nailiyyətləri ilə dünya ölkələrini heyrətləndirir. Azərbaycanın beynəlxalq mövqeləri getdikcə güclənir, nüfuzu artır.

Bu uğurların hamısının üzərində dayanmaq təqdim olunan bu məqalənin imkanı xaricində olduğundan biz yalnız Azərbaycan təhsilində əldə olunan bəzi məqamlarını, son beş ildə (seçkidən-seçkiyə) görülən işləri diqqət mərkəzinə gətirəcək, təhsilimizin cənab İlham Əliyev mərhələsindən söz açacağıq.

Təhsildən danışarkən dövlət başçısı deyir: "Təhsil hər bir dövlətin gələcəyidir. Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır. Eyni zamanda, müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün islahatlar aparılır. Hər bir məktəbin əsas qiyməti onun fəaliyyətinin göstəriciləri ilə bağlıdır. Hər bir məktəb çalışmalıdır ki, təhsilin səviyyəsi yüksək olsun".

Yuxarıdakı fikirlər cənab Prezidentin 2016-cı il sentyabrın 15-də Bilik günü münasibətilə Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimindəki çıxışından götürülmüşdür (1).

Cənab İlham Əliyev Prezidentliyinin ikinci dövründə (2008-2013) - 2009-cu il iyunun 19-da "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunun tətbiqi ilə bağlı sərəncam imzalamışdır.

2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə üçüncü müddətə ölkə Prezident seçilən İlham Əliyev elə həmin ilin oktyabr ayının 23-də, növbəti fəaliyyətinin ilk günlərində "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nın tətbiq olunması ilə bağlı sərəncam (2) imzalamışdır. Bu strategiya birdən-birə meydana gəlməmişdir. Cənab İlham Əliyev hələ 2011-ci il iyulun 11-də "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə informasiya cəmiyyətinin qurulmasını və biliklərə əsaslanan iqtisadiyyata keçidin yeni təhsil modelinə təlabatını nəzərə alaraq", "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması ilə bağlı Sərəncam vermiş, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin sədrliyi ilə Dövlət Komissiyası yaratmış, "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın layihəsini üç ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etməyi Dövlət Komissiyasına tapşırmışdı.

Bildiyimiz kimi, "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiya" beş strateji istiqaməti əsas götürür. Həmin strateji istiqamətlərə daxildir: 1) səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması; 2) təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi; 3) təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması; 4) müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması; 5) Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması.

Hazırda ölkə Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiya" qeyd olunan strateji istiqamətlər üzrə uğurla həyata keçirilir. Bu sənəd cənab İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi kimi qiymətli fikrinin reallaşdırılması üçün əlverişli imkanlar açır.

Bu ilin aprel ayında ölkəmizdə Prezident seçkiləri keçiriləcəkdir. Ötən beş ilin yekunlarından görünür ki, cəmiyyətimizin bütün həya-

tında, daxili və xarici siyasətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin uğurlarını artırmışdır. O, ölkə Prezidentliyinə ən layiqli namizəddir. Onun rəhbərliyi ilə 2013-2018-ci illərdə Azərbaycanda təhsilin inkişafında hansı nailiyyətlərə imza atmışıq?

Təhsil istənilən ölkədən ötrü strateji bir sahədir. Təhsilsiz cəmiyyətin inkişafı sadəcə qeyri-mümkündür. Azərbaycan Respublikasında təhsilin inkişafı cənab İlham Əliyevin səyi və rəhbərliyi ilə dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Elə bu səbəbdən də bizdə ölkənin müdafiəsi xərclərindən sonra ən çox vəsait təhsilin inkişaf etdirilməsi məqsədi ilə ayrılır. Yüzlərlə məktəb binasının, uşaq bağçasının inşası, əsaslı təmiri cənab İlham Əliyevin Prezidentliyi dövrünə düşür.

Bu istiqamətdə Heydər Əliyev Fondu da səmərəli fəaliyyətdədir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu sahədəki fəaliyyəti də önəmlidir. Hazırda Fond "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini həyata keçirir.

Məktəb tikintisindən söz açarkən dövlət başçısı diqqətə aşağıdakı məsələləri çatdırır: "Azərbaycanda məktəb tikintisi sürətlə gedir. Bu prosesə ilk təkanı Heydər Əliyev Fondu vermişdir. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin başlanması geniş bir hərəkata yol açdı. Ondan sonra dövlət xətti ilə bir çox məktəblər tikildi. 2004-cü ildən bu günə qədər 3 mindən çox məktəbdə əsaslı təmir işləri aparılmışdır, bir çox məktəblər yenidən tikilmişdir. Bu proses davam edir və davam edəcəkdir. Bu, çox müsbət haldır, ölkəmizin inkişafını göstərir. Əhalimiz nə qədər artsa, ölkəmiz o qədər də güclənəcək. Məktəblərə gedən uşaqların sayı hər il artır. Belə olan halda, əlbəttə ki, məktəb tikintisi prosesi daim təmin edilməlidir" (3).

Prezident İlham Əliyevin 2017-ci il sentyabrın 15-də Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin yeni binasının açılışındakı çıxışı zamanı eyni zamanda Bakı şəhərində məktəblərin tikintisi və təmiri, əsaslı təmiri məsələlərinə toxunmuşdur. Diqqət yetirək: "Son illər ərzində Bakı şəhərində məktəblərin əksəriyyəti əsaslı təmir olunub, yeni korpuslar, yeni məktəblər tikilib. Bakıda 300-dən çox məktəb var. Son məlumata görə, təmirə ehtiyacı olan məktəblərin sayı təqribən 20-yə yaxındır. Əminəm ki, 2019-cu ildə Bakının bütün məktəbləri ən yüksək standartlara cavab verəcək. Bu il Bakı şəhərində 10 məktəb əsaslı təmir olunub, biri tikilib. Ölkə üzrə isə 70-dən çox məktəb əsaslı təmir olunub, tikilib. Tikinti işləri davam edir. Bilirsiniz ki, bölgələrdə, ucqar kəndlərdə indi modul tipli məktəblər tikilir. Onlardan 100-ü bu il və gələn il istifadəyə verilməlidir. Beləliklə, qəzalı məktəblərlə bağlı olan problem də əminəm ki, yaxın iki-üç il ərzində öz həllini tam tapacaq" (3).

Cənab İlham Əliyevin sayəsində qloballaşan dünyada Azərbaycanımızın sosial-iqtisadi və mədəni inkişafı, tərəqqisi və nüfuzu günü-gündən artmaqdadır.

Dövlət başçısı inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsindən bəhrələnməyi faydalı hesab edir. Onun fikrincə, "Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik və görürük ki, o ölkələr, sözün əsl mənasında, inkişaf edir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Biz çalışırıq ki, Azərbaycanda bu sahəyə daim diqqət göstərilsin, praktik tədbirlər görülsün, həm təhsil sisteminin maddi-texniki bazası güclənsin, eyni zamanda və ən önəmlisi təhsilin keyfiyyəti artsın. Həm orta, həm də ali məktəblərdə bu proses ardıcıllıqla, vahid sistem şəklində aparılmalıdır və aparılır".

Cənab İlham Əliyevin düzgün qənaətinə görə, təhsilin səviyyəsi ölkəmizin perspektivlərini müəyyən edəcəkdir.

Prezident İlham Əliyev 2011-ci il dekabrın 19-da gənclərin cəmiyyətin həyatında fəal iştirakını təmin etmək üçün "Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması haqqında" Fərman imzalamışdır Dövlət başçısı 2017-ci il sentyabrın 15-də isə, "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı"nı (4) təsdiq etmişdir. Dövlət Proqramının məqsədi ölkəmizdə gənclər siyasətinin daha səmərəli şəkildə həyata keçirilməsini təmin etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına nail olmaq, yaradıcı və innovativ imkanlarının meydana çıxarılmasına dəstək vermək, böyüyən nəslin sağlamlığı qayğısına qalmaq, təhsil və məşğulluq məsələlərini diqqət mərkəzində saxlamaq, müasir informasiya-kommunikasiya texnologiyalarından bəhrələnmək, respublikamızda könüllülük hərəkatını inkişafını reallaşdırmaqdan ibarətdir.

Dövlət Proqramının qarşısına bir sıra vəzifələr qoyulmuşdur. Onları nəzərdən keçirək: gənclərin hərtərəfli inkişafı məqsədilə zəruri şəraitin yaradılması; azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında gənclərdə vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin səmərəliliyin artırmaq;

gənclər arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm mühüm keyfiyyətlərin inkişaf etdirilməsini, onların sağlamlığının qorunmasını və möhkəmləndirilməsini təmin etmək; gənclərin elmə həvəsləndirilməsi və məqsədlə gənc alim və tədqiqatçıların fəaliyyətinə dəstək vermək; tələbələrin mütərəqqi ideya və təşəbbüslərinə geniş meydan vermək; onların sahibkarlıq fəaliyyətinin dəstəklənməsi; gənclər siyasəti sahəsində çalışan mütəxəssislərin bilik və bacarıq səviyyəsini yüksəltmək, onların hazırlığı və yenidənhazırlığı üçün zəruri tədbirlər təşkil etmək;

Cənab Prezident son beş ildə təhsil və elm sahəsində çalışan müəllimlərin və alimlərin fəaliyyətini stimullaşdırmaq üçün onlara Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, orden və medalların, fəxri adların ("Əməkdar müəllim", "Əməkdar elm xadimi" və s.) verilməsi; gənc istedadların xüsusi təqaüdə layiq görülməsi; tələbələrin, magistrantların, doktorantların təqaüdünün artırılması; təhsil işçilərinin əmək haqqının artırılması ilə bağlı onlarla sərəncam imzalamışdır.

Bu kimi sərəncamlardan biri "Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında"dır (24 fevral 2018-ci il).

Son beş ildə keçirilmiş "Ən yaxşı müəllim", "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqələri qaliblərinin mükafatlandırılması haqqında; Bakı şəhərinin Yasamal rayonunda 20 nömrəli tam orta məktəb üçün yeni binanın tikintisi ilə bağlı tədbirlər haqqında (14 noyabr 2014-cü il); "Ağstafa şəhərində 3 saylı tam orta ümumtəhsil məktəbi binasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" (21 oktyabr 2016-cı il); dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında (6 yanvar 2015-ci il); "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında (26 yanvar 2015-ci il) (5) dövlət başçımızın sərəncamları olmuşdur.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) də ölkə Prezidentinin diqqət mərkəzindədir. Bu məsələ ilə bağlı aparılan işlərin yaxşılaşdırılması və təkmilləşdirilməsi məqsədilə cənab Prezident "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramının (14 dekabr 2017-ci il) təsdiq edilməsinə dair; "Azərbaycan Respublikasının regionlarında uşaq bağçalarının tikintisi ilə bağlı tədbirlər haqqında" (12 fevral 2018-ci il) xüsusi sərəncam vermişdir.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında (24 fevral 2017-ci il); Azərbaycan Dillər Universitetinin yenidən təşkili haqqında" (6 iyun 2017-ci il) cənab Prezidentin Sərəncamı olmuşdur.

Yüksək ballar toplayaraq respublikamızın ali məktəblərinə daxil olmuş tələbələrə də qayğı və maddi kömək göstərilir, onların uğurları yüksək qiymətləndirilir, əməyi, biliyi cənab Prezident tərəfindən dəstəklənir, onlara Prezident təqaüdü təyin olunur. Bu məqsədlə hər tədris ilinin əvvəlində belə tələbələrə Prezident təqaüdünün verilməsinə dair sərəncam imzalanır.

Cənab İlham Əliyev təhsili dövlətin gələcəyi hesab edir və təhsil sahəsində qazanılmış uğurlardan sonsuz qürur və iftixar hissi keçirdiyini diqqət mərkəzinə gətirir. Bu xüsusda deyir: "Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə, təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır. Eyni zamanda, müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün islahatlar aparılır. Müəllimlərin əmək haqları qaldırılır. Əlbəttə ki, hər bir məktəbin əsas qiyməti onun fəaliyyətinin göstəriciləri ilə bağlıdır. Hər bir məktəb çalışmalıdır ki, təhsilin səviyyəsi yüksək olsun" (6).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikirləri sentyabrın 15-də - Bilik günündə Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının

açılış mərasimində məktəbin kollektivi ilə görüşündə səsləndirib.

Dövlət başçısı məktəb rəhbərlərinə, təhsil işçilərinə, müəllimlərə təhsilin keyfiyyətinə fikir verməyi tövsiyə edir, şagirdlərin biliklərə, dünyagörüşünə və həyati bacarıqlara yiyələnmələrini mühüm və əhəmiyyətli məsələ bilir: "Biz bütün bu işləri ona görə görürük ki, uşaqlarımız, gənclərimiz savadlı, bilikli olsunlar. Çox yaxşı haldır ki, biz müstəqillik dövründə savadlılıq səviyyəsini yüksək həddə saxlaya bilmişik. Savadlılıq əsasdır və uşaqlarımız bilikli, ağıllı olmalıdırlar, yaxşı oxumalıdırlar ki, gələcəkdə onlar özləri üçün cəmiyyətdə layiqli yer tuta bilsinlər. Bugünkü dünyada savad, bilik hər şeyi müəyyən edir. İnsan öz həyatını yaxşı qurmaq istəyirsə, gələcəkdə cəmiyyətdə yaxşı yer tutmaq istəyirsə, mütləq yaxşı oxumalıdır. Yaxşı oxumaq üçün bütün şərait var. Mən əminəm ki, Azərbaycan uşaqları, gənclər, yeniyetmələr bu işlərə çox böyük məsuliyyətlə yanaşacaqlar. Təhsilin keyfiyyəti əlbəttə ki, bizim ən prioritet məsələmizdir. Ancaq şagirdlərdən və o cümlədən müəllimlərdən bu keyfiyyəti tələb etmək üçün gərək onların yaxşı şəraiti olsun. Müəllimlərin də iş şəraiti məktəblər istifadəyə verildikcə yaxşılaşır. Məktəb ancaq şagirdlər üçün deyil, müəllimlər üçün də iş yeridir" (6).

Məlum olduğu kimi, ölkəmizin dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlər bir çox hallarda təhsil haqqının ödənilməsi sahəsində çətinliklərlə qarşılaşır, bəzən təhsillərini yarımçıq qoymaq məcburiyyətində qalırdılar. Buna həssaslıqla yanaşan dövlət başçısı "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" 2011-ci il 14 sentyabr tarixli 1722 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Sərəncamı (18 iyul 2016-cı il) imzalayaraq, belə tələbələri təhsil xərclərindən azad etmişdir. Ödənişli əsaslarla dövlət ali təhsil müəssisəsində təhsil alan şəxslərə göstərilən təhsil xidmətlərinin dəyərinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi məqsədəuyğun hesab edilmişdir.

Dövlət başçısı təhsilalanların Vətənə layiqli şəxslər kimi yetişdirmələri, onların fəal vətəndaş mövqeyində olmaları, vətənpərvərlik, milli qürur və milli iftixar hisslərinə malik olmaları istiqamətində səmərəli işlərin görülməsini müəllimlərin qarşısına mühüm vəzifə kimi qoyur. Fikir verək: "Həm müəllimlər, həm valideynlər uşaqları vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli dəyərlərimizi hər şeydən üstün tutsunlar. Milli dəyərlərimizdə hər hansı bir sarsıntı yaşanarsa, bu, cəmiyyətimizin əsaslarını, sütunlarını sarsıdar. Ona görə, mən həmişə deyirəm ki, milli dəyərlərimiz, mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Biz onları qorumalıyıq, milli ruhumuzu saxlamalıyıq. Çünki bu, bizim gələcəyimiz üçün əsasdır Təhsil, vətənpərvərlik, milli dəyərlər, güclü Azərbaycan - budur bizim əsas prinsiplərimiz" (3).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin inkişafını onun intellektual potensialında görür. Bu barədə onun aşağıdakı fikirləri son dərəcədə qiymətlidir: "Hər bir ölkənin inkişafını ölkənin intellektual potensialı müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə, onların uğurlarına baxmaq kifayətdir ki, biz bunu deyə bilək. O ölkələrdə ki, innovasiyalar, texnologiyalar inkişaf edir, o ölkələr dünya miqyasında da aparıcı mövqelərə malikdir. Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcək. Biz görürük ki, iqtisadi sahədə, sənaye sahəsində, hərbi sahədə texnologiyalar nə qədər inkişaf edir. O texnologiyaların sahibləri bu gün dünyada da söz sahibləridir. Biz Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox böyük əhəmiyyət veririk ki, gənclərimiz, cəmiyyətimiz bilikli olsun və Azərbaycan da texnoloji inkişaf baxımından geridə qalmasın" (3).

Dövlət başçısı gəncləri cəmiyyətin fəal üzvlər hesab edir, ölkəmizin tərəqqisində, müdafiəsində, dünyada Vətənimizin layiqli yer tutmasında gənclərin böyük rol oynadığını deyir. Fikir verək: "Gənclər cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar".

Prezident İlham Əliyev xalqımızın adət və ənənələrinin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasını və inkişaf etdirilməsini vacib sayır. Bu xüsusda deyir: "Bizim müstəqilliyimiz milli dəyərlər, ənənələr üzərində qurulubdur.

Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq Azərbaycan xalqı həmişə öz milli-mənəvi dəyərlərinə sadiq olub. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Milli-mənəvi dəyərlərini qoruyub saxlamış xalq həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. Azərbaycan məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub və bundan sonra da olacaq".

Dövlət başçısı ölkəmizin çoxmillətli, çoxkonfessiyalı, çoxmədəniyyətli ölkə olduğunu diqqətə çatdırır. Qeyd edir ki, bu, bizim sərvətimizdir, biz bunu qorumalıyıq, qoruyacağıq. Biz bir çox məsələlərlə bağlı dünyaya yol göstəririk. İnkişaf, müstəqillik, ləyaqət, prinsipial siyasət, xalqlararası münasibətlər, din-dövlət münasibətləri, energetika, nəqliyyat siyasəti - bugünkü Azərbaycanın reallıqları budur. Çoxmillətlilik, çoxmədəniyyətlilik, çoxkonfessiyalılıq bizim sərvətimizdir. Çünki məhz bu dəyərlər, bu üstün keyfiyyətlər, çox qədim və möhkəm əsaslara söykənən multikulturalizm mühiti, ölkəmizdəki sülh və sabitlik Azərbaycanın bütün istiqamətlərdə inkişafının əsasında dayanır".

Biz son beş ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan təhsilinin inkişaf etdirilməsi sahəsində gördüyü tədbirlərdən, imzaladığı sərəncamlardan söz açdıq, eyni zamanda gənc nəslin tərbiyəsi sahəsindəki dəyərli fikirlərini yada saldıq. Təbii ki, yazımızda cənab Prezidentin gördüyü bütün işlər öz əksini tapmayıb. Bir məqalə çərçivəsində bütün bunları əhatə etmək imkan xaricindədir.

**Problemin aktuallığı.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilimizin inkişafı sahəsində gördüyü uğurlu tədbirləri, imzaladığı sərəncamları, gənclərin milli-mənəvi dəyərlərə yiyələnmələrinin vacibliyi haqqında fikirlərini yada salmaq öz aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** 2013-2018-ci illərdə təhsilimizin ölkə Prezidenti cənab İlham Əliyev mərhələsi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə diqqət yetirilən məsələlər maarifləndirici və təhsilləndirici xarakterlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimindəki çıxışı. http://www.yap.org.az/az/view/news/15363/prezident-ilham-eliyev-tehsilin-keyfiyyeti-ile-bagli-chox-onemli-addimlar-atilir-islahatlar-aparilir

2. "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası". Azərbaycan Respublikasının Prezidentinin 23 oktyabr 2013-c2 il tarixli sərəncamı ilə təsdiq edilmişdir. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr

3. Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci ildə Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin yeni binasının açılışındakı çıxışı.
https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Arif_Huseynzade_adina_20_nomreli_mekteb_liseyin_yeni_binasinin_achilisinda_istirak_edib_YENILANIB_2_VIDEO-1093781

4. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı İlə təsdiq edilmişdir http://www.president.az /articles/25237

5. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında (26 yanvar 2015-ci il) Azərbaycan Respublikasının Prezidentinin sərəncamı. http://president.az/articles/14132

6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də - Bilik günündə Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində məktəbin kollektivi ilə görüşündəki nitqindən. http://www.yap.org.az/az/view/news/15363/prezident-ilham-eliyev-tehsilin-keyfiyyeti-ile-bagli-chox-onemli-addimlar-atilir-islahatlar-aparilir